# Zaman arayır da...

**Bahar ömrü yaşananda**

Alın yazı doğulandan yazılar deyirlər. Və bu alın yazısını Tanrıdan başqa heç kəs oxuya bilməz. Ancaq yaşadıqca və yaşlandıqca, həyat psixologiyası zəngin olan insanlar başqasının yaşamına yaşadığı ömrün "akkordlarını" gördükcə bu onun həyatının belə olacağına "işarə idi" deyər, həyati problemlərin Allahın sınağı sanar, insanın güc potensialını qiymətləndirərlər. Amma alın yazısı yaşanmalıdır və hər şeyə rəğmən yaşanır. Bəzən bir insan 70-90 il yaşar, dünyasını dəyişəndə bir rəhməti zorla qazanar. Ömründən keçən illər ona xatırlanacaq bir iz buraxmaz. Bəzən fidan ömür yaşayan bir insan isə ömrünü yaddaşlara həkk edər və bir neçə nəsil xatırlanar; əməliylə, xarakteriylə.

Dünyasını hansı yaşda dəyişərsə insan o yaşında da qalar, illər ötsə belə. Ömrü bahar çağında sona yetənlər bahar ömürlü kimi yaşarlar könüllərdə, heç yaşlanmazlar. Belələri ya şəhid ömrü yaşar, ya da insanlığın pik nöqtəsinə üz tutan həyat yaşayanlar olar.

**Onu axtarırdım**

Fidan ömürlü birini axtarırdım... Mıxlıqovaq kəndinə getdim. Düşündüm ki, ən yaxşısı məktəbdir, soraqlaşaram evlərini. Balaca bir məktəbli dedi ki, mən bütün kənd şəhidlərinin evlərini tanıyıram, səni apara bilərəm. Kəndarası yollarla, həyətlərdən keçərək onların evinə getdik. Qapı açıq idi, çağırsaq da evdə kimsə olmadığı üçün səs verən olmadı və qonşu həyətdən şəhidimizin atasının əmisi Bəhmən kişi bizi qarşıladı, onun həyat yoldaşı Səhrayə xanım da səsimizə gəldi. Biz şəhid İmaməddingilin qapısına təkrar qayıtdıq. Yol qapısının hər iki tərəfində şəhidimizlə tanışlıq lövhəsi var idi. Şəkillərə baxdıqca onun əzizlərinin yanğısının qədərsiz olduğunu hiss etdim. Çünki İmaməddin çox gənc idi. Əmi ailəsi o körpə igid haqqında çox, həm də ürəklə, ağrı ilə danışdılar. Onun həyat tarixçəsi qısa ömürlü olmasına rəğmən o qədər zəngin idi ki...

Evlərini ziyarət etdik. Evə qalxmamış geniş kandar sanki bir muzey idi-İmaməddin muzeyi-Qəhrəmanlıq muzeyi!

İmaməddin Niyaməddin oğlu Yusifov 20.07.2002-ci ildə Mıxlıqovvaq kəndində doğulmuşdur, bütün igidlərimiz kimi sadə, zəhmətkeş bir ailədə. Orta təhsilini 2008-2019-cu illərdə F.Həmidov adına Mıxlıqovaq kənd məktəbində almışdır. Ailədə 3 övladdan ilki idi.



Atası Niyaməddin ailəsini dolandırmaq üçün işi ilə bağlı Bakı şəhərinə gedərkən İmaməddin nənəsi Sərmayə xanımla kənddə qalmış, demək olar ki, uşaqlığının ən gözəl çağlarını onun yanında keçirmiş, ona bağlanmışdı. Hələ körpə yaşından nənənin şirin söhbətləri, tərbiyəsi onu doğru həyata kökləmişdi. Vətən, torpaq, valideyn məhfumlarının tam mənasını anlamışdı. Kişi qeyrətli, kişi xislətli böyümüşdü. Mehriban, qayğıkeş, ailəcanlı idi. Onu bizə Bəhmən kişi və Səhrayə xanım, həm də evlərini axtararkən rastlaşdığımız kənd adamları öncədən tanıtmışdılar. İmaməddin 2020-ci ilin iyulun 22-də həqiqi hərbi xidmətə çağırıldı. Əvvəlcə Ağcabədidə hərbi xidmətə başladı. Atası Niyaməddin oğlunun andiçmə mərasimindən sonra başqa ölkəyə işləməyə getdi və ailə yenidən bir ortama gəldi, kəndinə döndü.

İmaməddinin bacısı Xədicə 9-cu sinif təhsili üzrə şəhadətnamə ilə kollecə daxil olmuşdu, Bakıda oxuyurdu, qardaşı Elgün isə məktəbli idi.

İmaməddin əsgəri xidmətdə olduğu zamanda öz davranışı və öyrənmək bacarığı ilə hörmət qazanmışdı.

**Dünya belə dünyadı...**

Dünya sürprizlərlə dolu-acılı, şirinli... Ancaq insan istər ki, hamısı acısız olsun. Haqsızlıq, ölüm olmasın. Ancaq B.Vahabzadə şeiriyyətində deyildiyi kimi, o zaman:

***Necə ağıl şəhid çəkəm,***
***Necə vicdan vəkil tutam...***

Xainlik iliyinə kimi işləmiş, çörəyini haramlıqla yeyən, kimlərinsə diktəsi ilə yalquzaq və tülkü ömrü yaşayan mənfur ermənilər torpaqlarımızı 30 il idi ki, bəzi səbəblərdən əsir saxlaya bilmişdi. Ölkə rəhbərliyi bir çox dövlətlər tərəfindən-BMT və MİNSK qrupu tərəfindən qəbul olunan sənəd və qətnamələrin kağız üzərindən qaldığından yalnız müharibə yolunun torpaqlarımızın azad olunması üçün labüd olduğunu düşündü. Elə buna görə də 2020-ci il sentyabrın 27-də qisas müharibəsi başlandı. Əlbəttə xalq ilə dövlət birgə olanda, fikir yekdilliyi zəfərlə nəticələnə bilir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səfərbərlik çağırışına bütün vətənpərvərlər yekdilliklə səs verdilər. Bu vətənpərvərlər arasında İmaməddin də var idi. Onun 18 yaşı olmasına baxmayaraq, düşüncə tərzi yüksək idi. Yaşadığı həyat onu yaşından tez böyütmüşdü.

***Həyat yollarında tanınır insan,***
***Zaman arayır da,***
***seçir də asan!..***

Bəlkə də zaman seçdi onu... Hərbi xidmət dövrü müharibə, Zəfər tarixi dövrünə təsadüf etdi. Xalq şairimiz B.Vahabzadə o qədər hikmətamiz ifadələr yazıb ki:

***İmzalarla deyil, gözlə görsünlər,***
***Ağlın duruluğu nə təhər olur.***
***Hökmün bulanığı nə təhər olur,***
***Günəşin işığı necə paylanır,***
***Niyə bu işıqlar gecə paylanır?***

Müharibəyə, döyüşlərə çağırış olanda belə ordumuzun gücü, ağlın gücü bulanıq hökmləri kölgədə qoyacağı məlum idi. Çünki şücaət əzəli ordumuz və onun müsəlləh əsgərləri günəşin işığının necə paylandığını və niyə "gecə" paylandığını aydın dərk edirdilər.

Bu isə həm siyasi yolla mübarizədə, həm döyüş yolu ilə igidlik mücəssəməsində avanqard idi, sadəcə qığılcım səbri daşdırmalı idi.

Bu səbr isə 2016-cı il hadisələrindən başlayaraq 2020-ci ilin iyul hadisələrində pik nöqtəyə çatdı... Müharibənin labüd olduğu hər bir hərbçiyə və düşüncə tərzi güclü olan kəsə aydın idi. Beləcə başladı "günəşin işığının gecə paylanması"...

2020-ci ilin sentyabrın 27-dən... ta 44 gün...

**Onun döyüş yolu**

Yaşı kiçik idi, davranışı, xarakteri böyüklərə məxsus idi. Arzuları, niyyətləri sonsuz idi. əsgəri xidmətə gələndə belə böyümüşdü. İyul hadisələri böyütdü onu bir az da... Valideynləri də, nənəsi də artıq İmaməddinin müharibə şəraitinin əsgəri olacağını bilirdilər. Ürəkləri səksəkə dolu olsa da bilirdilər ki, onların körpə oğul balası onların başını uca edəcək həmişə. Harada olursa olsun, çətinliklərdən qorxmaz, həmişə özünü irəli verər, öndə olar. Çünki vətən onu sevənlərindir, onun qoynunda zəhmətlə yaşayan, əlinin qabarı ilə qazanılan çörəyi yeyənlərindir. Vətən təkcə doğulduğun kənd, şəhər deyil, bütövlükdə Azərbaycandır.

Xalq yalnız öz obasının, mahalının sakinləri deyil, torpağında yaşayan hər kəsdir; bütövlükdə Azərbaycandır. Öz obasından köçkün düşən hər kəsin yurd həsrəti onun da həsrəti, acısı, onun idi. Vətən onu oğul bilib, oğul deyə səsləyirdisə, demək ona etibar edir, ona güvənirdi. Bəli, güvənli biri idi İmaməddin! Məhz ona görə də müəyyən səbəblər üzündən ayağı yaralı olsa da, əsgər "botinkası"nı geyinə bilməsə də, müharibə başlayan kimi döyüş bölgəsinə yollandı. Elə xidmət etdiyi bölgə məhz döyüş bölgəsinə daha yaxın idi.

Sentyabrın 27-dən etibarən döyüşlərdə iştirak etdi, oktyabrın 10-dək döyüşdü; Füzuli istiqamətində gedən döyüşlər onun döyüş yolu idi. Ailəsi ilə telefonla əlaqə saxlayan zaman anası ona demişdi ki, sənin dostlarını televiziya çəkilişlərində göstərirlər, sən də önə çıxsan görərdik. "Məni də 2 günə görərsiniz", - demişdi əsgər bala. 2 gün sonra isə onun şəhid xəbəri gəldi. Bu oktyabrın 10-na təsadüf etmişdi.

Onun şəhid xəbəri gələndə atası başqa ölkədə idi. Nənəsi bu xəbəri eşidib, saçlarını yolanda, ana-bacısı, körpə qardaşının dünyası yıxıldı. Heç doymadı ana oğul balasından, ürəkli boyuna tamaşa edə bilməmişdi, uşaq kimi oxşayıb, əzizləməyə belə vaxt tapmamış erməni mənfurluğunun, xislətinin qurbanı oldu İmaməddin...

Babasının dünyasını dəyişməsinin 52-ci günü doğulduğuna görə onun adı qoyulmuşdu ona. Ancaq kənddə ona Vüqar deyərdilər. Oğlunun "yaralı" xəbərini eşidən əsgər atası Azərbaycana gəlmək üçün çırpınırdı. Pandemiya dövrünə təsadüf etdiyi üçün Niyaməddin Yusifovun gəlməsi çətinləşmişdi, sərhədlər bağlı idi. Onun gəlməsinə icazə veriləndə bilmirdi ki, övladı şəhid olduğu üçün ona belə tezliklə izn verilir... Yalnız Azərbaycana gəldikdən sonra onu qarşılayan qohumunun telefonunda Vüqarın (İmaməddinin) şəhid olduğunu öyrəndi. Dünyası qaralmış ata gəldikdən sonra şəhidimiz dəfn olundu.

İmaməddin ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

**Andına sadiq**

Zəfər günlərini görmədi, qələbə sevincini yaşamadı körpə əsgərimiz. Cəmi 2 ay 18 gün hərbi xidmətdə oldu. Şəhidliyi isə... Şəhidliyi bir daha sübut etdi ki, erməni xisləti, xainliyi yalnız onlara məxsusdur, onlar üçün qanun, intizam, insanlıq xüsusiyyətləri yoxdur. Axı şəhidimiz məhz atəşkəs dövründə şəhadətə qovuşmuşdu.

Hərbi xidmətin sınaq dövründən sonra əsgərlərin andiçmə mərasimi keçirilir. əsgər həyatında ən möhtəşəm gündür həmin gün-axı əsgər and içir!

***Əsgər andı atəş demək,***
***Əsgər andı görüş demək.***
***Vətən mənə oğul dedi-***
***Vuruş demək, döyüş demək!***

İmaməddin andına sadiq qaldı, bu andı əsgər həyatının yaşıl işığı seçdi və o işıqla da yüksəldi! Axı hərbçinin ən böyük adı, titulu şəhidlikdir. Şərəfli və əbədiyaşar bir titul, ölməz bir ölüm. Bu isə yalnız vətənpərvər, insanlığı vicdanın diktəsi ilə qəbul edənlərə xas olur.

**BİBİXANIM.**

# Vətənpərvərlik



Şəhid Tural Cəlilov.

Vətəni vətən edən oğullar könüllərdə yaşayar, tarixin yaddaşına gömülərlər. İnsanlar arasında nəsilbənəsil xatırlanarlar. Onlar vətənin hər qarış torpağı üçün döyüşər, sağlamlıqlarını, canlarını fəda edərlər. Şəhid olub şəhadətə qovuşmaq hər insana nəsib olmaz. Onlar sanki Tanrı tərəfindən seçimişlərdir! Dünyaya göz açandan xisləti ilə, özünəməxsus xarakteri ilə, vicdani hislərinin sağlamlığı ilə, torpağa məhəbbəti, elinə, obasına sevgisi ilə fərqlənənlərdir onlar. Onların həyat və amallarını öyrəndikcə həqiqətən də vətən fəaillərinin "seçilmişlər" olduğunun şahidi oluruq. Çox gənc olmalarına rəğmən qorxmaz və igiddir onlar. Valideyn sevgisi, yurd məhəbbəti, xalqına inam, istək onlarda daha güclüdür. Bax, ona görə də, gözlərini belə qırpmadan vətən uğrunda hər bir çətinliyə sinə gərərək canlarını belə qurban verdilər.

Şəhidlik igidliyin ən uca adıdır. Bu adı qazanmaq üçün gərək bütün varlığınla vətənpərvər olasan.

Rayonumuzdan cəbhəyə gedən oğulların şücaəti göz qabağındadır. Polad Həşimov əqidəli oğullar onun qisasını almaq, 30 illik əsarətə, torpaqlarımızın yağı tapdağından azad olunması üçün mübarizəyə başladılar. 44 günlük müharibədə öz sevgilərini qəhrəmanlıqları ilə sübut etdilər. Belə qəhrəmanlar daim ürəklərdə yaşar, yaddaşlara əbədi həkk olar. Onlar şəhidlərdir, zirvələrdə məskunlaşan insanlardır. Onlar yeni tarix yazanlardır, yurdumuzun qəhrəmanlıq salnaməsini əks etdirənlərdir. Bu gün yaşadığımız həyat üçün onlara borcluyuq. Bax, onlar vətənə borcunu layiqincə yerinə yetirdiyi üçün bizlərin də onları yaşatmaq müqəddəs borcudur. Heç nə unudulmamalı, heç kim yaddan çıxmamalıdır.



Şəhid Sahil Şirinov.

Şəhidlərin ailələri ilə görüşmək, məzarlarını ziyarət etmək, doğum və anım günlərində əzizlərinin yanında olmaq hər bir vətənpərvər insanın, hər kəsin insanlıq borcu, vəzifəsidir.

Cənnətdəki ad günləri aprel ayına təsadüf edən şəhidlər vətənpərvər insanlar tərəfindən ziyarət edilmiş, ruhlarına dualar oxunmuşdur. Onlar daim könüllərdə yaşayır və yaşayacaqdır.

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**